

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 yanvar 2024-cü il №1 (2812) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



- Əziz həmvətənlər.

2023-cü il arxada qalır. 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür. Bu tarixi hadisə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi.

Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu, belə olmadı. Üç il ərzində Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, hətta əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi.

Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu bizim ərazimizdən çıxarılmalıdır, ya da ki, biz güc tətbiq edərək dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, bizim sözümüzə diqqət yetirilmədi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz.

Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Onu bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır.

2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan vermərik ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır - 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmış və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib.

Onu da bildirməliyəm ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa ediləib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar.

Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər. Bizim çaylarımız zəhərləndi, bizim meşələrimiz qırıldı. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilmədi.

Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara, əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik. Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, bizim qəzəbimizə tuş gəlməsin.

Biz bu il iqtisadi sahədə öz siyasətimizi uğurla aparmışıq. Müstəqil iqtisadiyyat bizə imkan verir ki, heç kimdən asılı olmayaq, heç bir beynəlxalq maliyyə institutundan asılı olmayaq və asılı deyilik.

Biz Ordumuzu böyük dərəcədə gücləndirmişik, həm peşəkarlıq artdı, yeni silahlı birləşmələr yaradıldı və bu silahlı birləşmələr digər silahlı birləşmələrlə birlikdə antiterror əməliyyatında çox böyük peşəkarlıq göstərmişlər. Yeni silahlar, hərbi texnika alındı, gətirildi, bir çox yeni kontraktlar imzalandı. Onu da bildirməliyəm ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq. Gələn il həm dövlət, həm özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı bir milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsulların həcmi və sayı böyük dərəcədə artacaq.

Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Dekabr ayında dünyanın ən böyük beynəlxalq konfransının Azərbaycanda keçirilməsi haqqında bütün dünya ölkələri yekdil qərar qəbul etmişlər - COP29 gələn il Azərbaycanda keçiriləcək. Bu, bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, eyni zamanda, bizim yaşıl enerjiyə keçidimizə olan böyük qiymətdir. Yaşıl enerji keçidi bizim prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük bərpaolunan elektrik enerjisi stansiyası istifadəyə verilmişdir - 230 meqavat gücündə günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpaolunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. Əlbəttə ki, COP29 - iqlim dəyişikliyinə həsr edilmiş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir.

Bu il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Ulu Öndərin 100 illiyi ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət Bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir.

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.

Tarixi Zəfərimiz - İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. "Dəmir yumruq" bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda, "Dəmir yumruq" birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, "Dəmir yumruq" hər zaman yerində olacaq.

Əziz bacılar və qardaşlar, sizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, 2024-cü il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olsun. Bayramınız mübarək olsun!

# Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun xatirəsi yad edilib



*Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun doğum günündə məzarı ziyarət olunub.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Müdafiə Nazirliyinin bir qrup zabiti və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə Milli Qəhrəmanın keçdiyi şərəfli ömür yolundan danışılıb, onun həyatının gənc zabitlərə örnək olduğu xüsusi vurğulanıb. General-mayor Polad Həşimovun hərbi xidmətdə fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən orden və medallarla təltif edildiyi diqqətə çatdırılıb.




Qeyd olunub ki, 2016-cı ilin Aprel döyüşlərində xüsusi xidmətlərinə və qarşıya qoyulmuş tapşırıqların icrası zamanı fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 aprel 2016-cı il tarixli müvafiq Sərəncamına əsasən Polad Həşimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

2019-cu il iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Polad Həşimova "general-mayor" ali hərbi rütbəsi verilib.

14 iyul 2020-ci il tarixdə Tovuz rayonu istiqamətində düşmən təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olan general-mayor Polad Həşimov Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Milli Qəhrəmanın məzarı üzərinə gül dəstələri düzülərək xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

# Şəhid hərbi pilot Rəşad Atakişiyevin məzarı ziyarət edilib







Təlim-məşq zamanı qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin hərbi pilotu şəhid polkovnik-leytenant Rəşad Atakişiyevin doğum günü münasibətilə anım tədbiri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Hərbi Hava Qüvvələrinin bir qrup hərbi qulluqçusu İkinci Şəhidlər xiyabanını ziyarət edərək şəhid hərbi pilotun məzarı üzərinə gül dəstələri düzüb, xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Anım mərasimində polkovnik-leytenant R.Atakişiyevin şərəfli döyüş yolundan söhbət açılıb, Vətənə olan sədaqətindən, xidmət müddəti ərzində nümayiş etdirdiyi yüksək peşəkarlığından danışılıb.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatının birgə tədbirlər planı imzalanıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2024-cü il üçün birgə tədbirlər planı imzalanıb.

Plana əsasən, Müdafiə Nazirliyinin tabeliyindəki qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində cari il ərzində keçirilməsi nəzərdə tutulan tədbirlərin yeri, vaxtı və məsul şəxslər müəyyən edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu il təşkil ediləcək tədbirlər zamanı hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə bağlı şəxsi heyətlə bir sıra görüşlər keçiriləcək, müxtəlif mövzularda məruzələr dinləniləcək, həmçinin onlarla ətraflı fikir mübadiləsi aparılacaq.

## Müdafiə Nazirliyi və Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb

2024-cü ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana müvafiq olaraq cari ildə nəzərdə tutulan birgə tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyənləşdirilib.

2024-cü il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla keçiriləcək görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, hərbi intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər icra olunacaq.

## Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2024-cü il üçün birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, birgə tədbirlər planına əsasən, Azərbaycan Ordusunda dini radikalizmə qarşı mübarizəyə dair keçiriləcək tədbirlərin yeri, icra vaxtı və icraya məsul şəxslər müəyyən olunub.

Tədbirlərin Müdafiə Nazirliyinin tabeliyindəki qoşun (qüvvə) növü, birlik, birləşmə, hərbi hissələr və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil olunması nəzərdə tutulub.

Cari il ərzində Azərbaycan Ordusunun hərbi qulluqçuları ilə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişafı, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq, o cümlədən digər mövzularda tədbirlər keçiriləcək, maarifləndirici söhbətlər aparılacaq.

## Azərbaycan Ordusunda komandir heyəti ilə toplanış keçirilir



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, Azərbaycan Ordusunda komandir heyəti ilə toplanış keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanışa cəlb edilən şəxsi heyətin nəzəri və praktiki məşğələlərdə müasir ümumqoşun döyüşünün təşkili, aparılması üzrə bilik və bacarıqları, həmçinin fiziki və sıra hazırlıqları yoxlanılacaq. O cümlədən iştirakçılardan hərbi nizamnamələr, rəhbəredici və digər normativ hüquqi sənədlər üzrə məqbullar qəbul ediləcək, atıcı silahlardan atışlar icra olunacaq.



Keçirilən toplanışın əsas məqsədi zabitlərin bölmələri idarəetmə üzrə nəzəri biliklərinin və peşəkarlığı səviyyələrinin artırılması, qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsi, eləcə də silahlanmaya yeni qəbul edilən silah, texnika və cihazların imkanlarının öyrənilməsidir.

## Azərbaycan Ordusunda məharət dərəcələrinin verilməsi üzrə sınaq imtahanları keçirilir







*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına əsasən, zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına məharət dərəcələrinin verilməsi üzrə sınaq imtahanları keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, imtahanlar Azərbaycan Ordusunun müxtəlif təlim mərkəzlərində sinif otaqları və çöl-səhra şəraitində keçirilir. Sınaqlara cəlb edilən şəxsi heyətin ümumqoşun nizamnamələri, həmçinin rəhbəredici və digər normativ sənədlərlə bağlı bilikləri, fiziki və sıra hazırlıqları yoxlanılır.

Eyni zamanda, hərbi qulluqçular silahlanmada olan döyüş texnikasının ştat silahından və atıcı silahlardan təyin edilmiş hədəflərə müxtəlif məsafələrdən atəş açılması, eləcə də döyüş maşınlarının və avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqlarını yerinə yetirirlər.

Şəxsi heyətin döyüş hazırlığının, ixtisaslara uyğun bilik və bacarıqlarının yoxlanılması, həmçinin peşəkarlığının qiymətləndirilməsi məqsədilə keçirilən imtahanlar davam edir.

## İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar ilə təlim-metodiki toplantı keçirilib

*2024-cü ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun (qüvvə) növlərində, birlik və birləşmələrində ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar ilə təlim-metodiki toplantı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Toplantıda ideoloji iş və mənəvi-psixoloji təminatın yüksəldilməsi istiqamətində ötən il ərzində görülən işlərə, əldə olunan nailiyyətlərə və nöqsanların aradan qaldırılmasına dair məruzələr dinlənilib, cari ildə bu istiqamətdə görüləcək işlər, perspektiv planlar müzakirə olunub.

## Yaşar Gülər: 44 günlük müharibədə Azərbaycan Ordusu qəhrəmanlıq göstərdi



*Qırx dörd günlük müharibədə Azərbaycan Ordusu yüksək fədakarlıq, qəhrəmanlıq göstərdi. Azərbaycan türkü təxminən 30 il ərzində həlli dondurulmuş, sinəsində qanayan yara olan Qarabağın azadlığı üçün üzləşdiyi çətinliklər qarşısında əyilmədi, əcdadımıza yaraşan şəkildə Vətəninə, xalqına, hüququna və öz torpaqlarına sahib çıxdı.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin milli müdafiə naziri Yaşar Gülər bir qrup azərbaycanlı Vətən müharibəsi iştirakçısı ilə görüşü zamanı söyləyib.

Nazir bildirib ki, bu böyük Qələbə sadəcə Ermənistan üzərində qazanılan Zəfər deyil, eyni zamanda, illər boyu haqsızlığa, hüquqsuzluğa göz yumanlara, səssiz qalanlara ən gözəl cavabdır.

"Azərbaycanın Zəfəri Türk tarixinə də damğa vurub. Türkiyə olaraq davamlı sülh üçün üzərimizə düşən bütün səyləri göstərdik, bundan sonra da qərarlı bir şəkildə bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik. Vətən müharibəsində olduğu kimi, bundan sonra da hər zaman can Azərbaycanın yanında olacağıq", - deyə Yaşar Gülər vurğulayıb.

## "Bu il milli hərbi sənayemizin sürətli inkişafına şahid olacağıq"

*Hərbi sənayenin inkişafına bir milyard manat vəsaitin qoyulması olduqca mühüm hadisədir. Bu il milli hərbi sənayemizin sürətli inkişafına şahid olacağıq.*

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov bildirib.

Ekspert qeyd edib ki, Prezident İlham Əliyevin bilavasitə qayğı və diqqəti milli hərbi sənayenin inkişafı üçün geniş perspektivlər açır:

"Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində cari illə bağlı bir sıra müjdələr verdi. Bu müjdələrdən biri də 2024-cü ildə milli hərbi sənayenin inkişafına bir milyard manat məbləğində sərmayənin qoyulacağı ilə bağlıdır. Bu fakt bir daha onu göstərir ki, hərbi sənayenin inkişafı dövlətimiz üçün prioritet sahələrdən biridir və bu inkişaf ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun, güc və qüdrətinin daha da yüksəlməsinə səbəb olacaq".

Cəlil Xəlilov qeyd edib ki, milli hərbi sənayemizin istehsal etdiyi məhsullar 2020-ci ilin Vətən müharibəsində özünü yüksək səviyyədə doğruldub, ordumuzun təchizatında mühüm rol oynayıb. "Müharibə bir daha sübut etdi ki, Azərbaycan hərbi sənayesinin istehsal etdiyi məhsullar müasir tələblərə cavab verir və bu məhsullara beynəlxalq arenada ciddi ehtiyac var. Milli hərbi məhsullarımızın rəqabətə davamlılığı onların yüksək keyfiyyətə malik olmasının göstəricisidir. Bu baxımdan hesab edirəm ki, hərbi sənayemizin inkişafına bir milyard manat vəsaitin qoyulması olduqca mühüm hadisədir və biz yaxın illərdə bu böyük addımın ciddi nəticələrinə şahid olacağıq.

Ən əsası, bu olay həm də Müzəffər Ali Baş Komandanın dövlətimizin müdafiə və təhlükəsizliyinə verdiyi önəmi göstərir və hər mənada alqışlanmalıdır", - deyə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini vurğulayıb.

# Müddətli həqiqi hərbi xidmət müddəti başa çatmış hərbi qulluqçular tərxis olunurlar



Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrasının təmin edilməsi ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun hərbi hissələrində müddətli həqiqi hərbi xidmət müddəti başa çatmış hərbi qulluqçuların tərxis edilməsi ilə bağlı tədbirlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Keçirilən tədbirlərdə çıxış edənlər Azərbaycan Ordusundan ehtiyata buraxılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularını hərbi xidmətlərini layiqincə başa vurduqlarına görə təbrik edib, onlara gələcək işlərində müvəffəqiyyətlər arzulayıblar.





Xidmət müddəti başa çatan əsgərlər isə öz növbələrində Azərbaycan Ordusu sıralarında xidmət etməkdən qürur duyduqlarını bildiriblər. Hərbi xidmətdə olduqları müddət ərzində əldə etdikləri müsbət keyfiyyətlərin onların gələcək həyatlarında faydalı olacağına əminliklərini bildiriblər.

Xidmət müddəti ərzində fərqlənən bir qrup hərbi qulluqçuya mükafatlar təqdim edilib.

Tərxis olunan hərbi qulluqçularla xatirə şəkilləri çəkdirildikdən sonra onlar yaşadıqları bölgələrə yola salınıblar.

# Azərbaycan Ordusunda ağacəkmə aksiyaları keçirilir



Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunda ağacəkmə aksiyaları keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təbiətin qorunmasına töhfə vermək, ətraf mühiti sağlamlaşdırmaq, yaşıllıqları artırmaq, ekoloji tarazlığın bərpasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək məqsədilə respublikamızın müxtəlif bölgələrində yerləşən hərbi hissələrin ərazilərində xeyli sayda həmişəyaşıl ağaclar əkilir.

Azərbaycan Ordusunda cari ildə genişmiqyaslı yaşıllaşdırma işlərinin aparılması və ağacəkmə aksiyalarının keçirilməsi davam etdiriləcəkdir.



*Nümunəvi xidmət*

# "Mən də mühəndis-istehkamçıların sırasındayam!"

Xocavənd də 28 il işğal sıxıntıları yaşadı. Xocavəndlilər də yaxın qəriblik ağrıları yaşadı. İşğala görə doğma yurdundan uzaq düşmək mənəvi göynərtidi. Xocavəndli olub Xocavəndi görməyənlər üçün bu müddətin ayları bəlkə də il qədər uzanıb. 2020-ci ilə kimi bu ovqat yaşanılıb. İndi belə deyil.

Elməddin Əliyev Xocavəndin Qaradağlı kəndindəndir. Ruhu ilə Qaradağlının qapqara qaralmış göylərini görərdi, necə illər əvvəl güllələrin qamqalaq qopartdığı qara daşların çat verdiyini görərdi, ot basmış cığırlar görərdi. Gördükləri könlünü sıxardı. Böyüdükcə Xocavəndə daha həssaslıqla bağlanırdı...

Xocavəndin Qaradağlı kəndi Birinci Qarabağ müharibəsində - 1988-ci ildən 1992-ci ilə kimi ermənilərlə döyüşmüşdü, mühasirədəydi. 1992-ci il fevralın 17-də ermənilər Qaradağlıda faciə törətmişdilər. 60-dan çox sakini öldürmüşdü, öldürdüklərini bir çalaya doldurmuşdular... Bunları Elməddin də bilirdi. Bu qansızlıq, bu qəddarlıq, bu vəhşilik - bunların hamısı erməniliyi müəyyənləşdirir - onun da ruhunu titrətmişdi, onun da yumruqları düyünlənmişdi. "Ata yurdundan uzaqda yaşanılan illər ömürdən deyil...", - qaçqın babanın dedikləri Elməddinin ruhunu üşəndirmişdi. O gecəni Elməddin yaşadığı illərin ən uzun gecəsi bildi. Səhəri gün qərarını gerçəkləşdirməyə getdi - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olacaqdı. Tanımadığı qaçqın babanın sızıltısını öz canında hiss eləmişdi. O uzun gecənin səhərini ömrünün bundan sonrakı illərinin yolgöstərəni bildi...

İndi kiçik çavuşdur. Mühəndis-istehkam bölüyündə xidmət edir.

İkinci Qarabağ müharibəsində o da iştirak edib. Əbdürrəhmanlı kəndindən Qubadlıyacan döyüşənlərin döyüş yolunda "dəhlizlər" açanların sırasında olub. "Mina təmizləmək də döyüşdü. Düşmənin özü ilə döyüşçülər döyüşür, mühəndis-istehkam bölüyünün şəxsi heyəti onun gizlətdiyi ölüm şəbəkəsi ilə. Bir an, bircə an tələsən istehkamçı da, bircə an ləngiyən istehkamçı da özünü, ətrafındakıları ölümə, çox ağır yaralanmalara, əlini, ayağını, gözünü itirməyə məhkum edir. İstehkamçı hər şeyi vaxtında etməyi bacarmalıdır...", - Elməddin xidmət yoldaşlarına belə deyirdi.



Onlar Cəbrayılın Balasoltanlı kəndində idilər. Döyüşçülərimiz iki təpənin arasından sıyrılıb hücuma keçəcəkdilər. Bu hücum qazanılacaq qələbələrin başlanğıcı olacaqdı. Balasoltanlı sonrakı qələbələrin uğurunun ilki kimi tarixləşəcəkdi. O iki təpənin arasından açılacaq "dəhliz"in o üzündə döyüşlər gedəcəkdi. Vaxt gözləmirdi.

"Dəhliz"i açmışdılar. Nəfəs dərirdilər. Hücum əmri veriləndə onlar da avtomatlarını götürdülər...

Həmin döyüşdə düşmənin bir bölüyü məhv edildi...

Qubadlının Xanlıq kəndində də çətin şəraitdə döyüşçülərimizə döyüşə aparan təhlükəsiz yol açmağa nail olmuşdular. Onda komandir ad-soyad bildirmədən təşəkkür eləmişdi. Gizir incə bir təbəssümlə demişdi: "Bu təşəkkür hamımızındı. Bundan sonra belə təşəkkürləri yenə alacağıq. Xocavənddə də belə ovqat yaşayacağıq...", - demişdi, gözucu Elməddinə baxmışdı...

İkinci Qarabağ müharibəsi başa çatmışdı. Mühəndis-istehkam bölüyünün şəxsi heyəti hələ düşmənin qara niyyətlərini aşkarlayır, zərərsizləşdirirdi; onlar üçün müharibənin sonrası hələ davam edirdi; əraziləri minalardan və partlamamış sursatlardan təmizləyirdilər...

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə kiçik çavuş Elməddin Əliyev İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətə görə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunub...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Topçular hazırlıqlarını daim artırırlar



Kapitan Elşən Veysəlli təcrübəli topçulardandır. O, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olanda artilleriya ixtisasını seçmişdi. Mükəmməl və peşəkar artilleriyaçı olmağı qarşısına məqsəd qoymuşdu. Təhsil aldığı illərdə hərbi bilikləri dərindən yiyələnmək üçün səylə çalışmışdı. Artıq Elşən Veysəlli bu məqsədinə çatıb desək, yanılmarıq. Zabit kimi hərbi xidmətə başladığı ilk illəri yaxşı xatırlayıram. Onun şəxsi intizam, xidmətə məsuliyyətlə yanaşmaq, tabeliyində olanlara qayğı göstərmək və onlardan nümunəvi xidmət tələb etmək kimi xüsusiyyətləri vardı. O zaman İkinci Qarabağ müharibəsi başlanmamışdı, amma tabeliyində olan heyətləri həvəslə döyüşlərə hazırlayırdı. Belə də oldu... Hazırladığı top heyətləri müharibədə düşmənin əsas hədəflərini dəqiq atəş zərbələri ilə sıradan çıxara bilmişdilər. Elşən və onun kimi peşəsini dərindən öyrənmiş zabitlərin əməyi sayəsində topçular düşmənə sarsıdıcı zərbələr endirmiş, piyada bölmələrimizin irəliləməsinə şərait yaratmışdılar.

Zabit bu gün çox məmnun görünür. Ona görə ki, o, komandiri olduğu bölmə ilə tarixi torpaqlarımızda - Qarabağda hərbi xidmətini davam etdirir.

- Xocalı xalqımızın qan yaddaşıdır. Xocalı faciəsi ilə bağlı orta məktəb illərində çox oxuyub dinləmişəm. Xocalı erməni vandalizminin pik nöqtəsi idi. Bu gün tabeliyimdə olan şəxsi heyətlə Xocalıda dislokasiya olunan hərbi hissələrdən birində xidmət etməyimlə qürur hissi keçirirəm. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında biz 30 ilə yaxın erməni silahlı qüvvələrinin işğalı altında qalmış torpaqlarımızı azad edərək, ölkəmizin ərazi bütövlüyünü tam təmin etdik. Hərbi xidmətə başladığım ilk gündən arzum bu idi və buna da nail olduq, - Elşən Veysəlli dedi.

Düşmən özünü nə qədər güclü göstərməyə çalışsa da, Azərbaycan xalqı və dövləti doğma torpaqlarının işğalı ilə qəti barışmadı. Hər zaman düşmənin silahlı birləşmələrini sülh danışıqları yolu ilə ərazilərimizdən çıxarmağa sövq etdi. Əks halda müharibənin qaçılmaz olduğunu bildirdi, lakin düşmən bunun heç birinə məhəl qoymadı və zənn etdi ki, Azərbaycan Ordusunu asanlıqla məğlub edəcək. Lakin İkinci Qarabağ müharibəsi göstərdi ki, Azərbaycan Ordusu onlardan qat-qat güclüdür. Cəmi 44 günə rəşadətli ordumuz qarşıya qoyduğu döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyi bacardı, tarixi zəfər qazandı.

Qəhrəman Azərbaycan əsgəri uğurlu əməliyyatlar həyata keçirərək dinc dövrə qədəm qoyub. Əsgərlər öz hazırlıqlarını yenə də artırmaqda davam edirlər. Təlim yerində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Yasin Alıyevlə görüşdüm. O, komandiri olduğu heyətlə topun yanında növbəti məşğələni keçirdi. Yasin Füzuli rayonunun Alxanlı kəndində anadan olub. Gözünü açandan doğma rayonunda müharibə və onun törətdiyi acıları görüb. Güllə səsi altında yatıb, top səsinə oyanıb. Onda ermənilərə qarşı qəzəb yaranıb. Böyüyəndə mütləq hərbçi olmaq qərarına gəlib. Vədinə sadiq qalan Yasin topçu kimi özünü təsdiq edib. Müharibədən əvvəl də dəfələrlə komandirlərdən təşəkkür və fəxri fərmanlar alıb. Onun şəxsi intizamı komandiri olduğu heyət üzvlərinə nümunə olub. Məqsədi, amalı tabeliyində olanların fərdi hazırlığını artırmaqla istənilən döyüş tapşırığını yüksək səviyyədə icra etmək idi. Həm Aprel döyüşlərində, həm 44 günlük Vətən müharibəsində, həm də sonrakı əməliyyat tədbirlərində Yasin Alıyev də iştirak edib. Vətən müharibəsində fərqləndiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Cəsur döyüşçü" medalı ilə təltif olunub.



Şəmkir rayonundan hərbi xidmətə çağırılan əsgər İsmayıl Tağıyev top heyəti ilə sonuncu əməliyyat tədbirlərində də iştirak etdiyini və bununla fəxr etdiyini dedi.

Heyət üzvlərindən əsgərlər Alişan Xudaverdiyev, Səbuhi Qasımov, Allahverdi Fərəcov, Teymur Quliyev, Əliyar Xəlilov və başqalarını burada bir ülvi hiss - Vətən sevgisi birləşdirib. Onlar keçən il sentyabrda erməni silahlı dəstələrinə qarşı ordumuzun həyata keçirdiyi əməliyyat tədbirləri zamanı birgə döyüşüblər. Onların şücaəti nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub.

Əsgər Aslan Xudaverdiyev Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirib. Azad edilmiş rayonlarda aparılan tikinti-quruculuq işlərinin sürətlə davam etdiyi bir vaxtda ordu sıralarından tərxis olunduqdan sonra gələcəkdə burada mühəndis kimi çalışmaq istədiyini dedi.

Erməni işğalından azad edilmiş ərazilərdə hazırda bərpa-quruculuq işləri davam edir. Zamanında bu ərazilərin azad edilməsində iştirak edən Vətən oğulları indi də quruculuq işlərinə öz töhfələrini vermək istəyirlər. Əsl vətəndaşlıq təəssübü, bax, budur. Bu günün əsgərləri sabahın qurucularıdırlar.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# "Vətən uğrunda vuruşmaq böyük xoşbəxtlikdir!"

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Vətən təəssübü çəkən oğullar yumruq tək bir olub torpaqlarımızın müdafiəsinə qalxdılar. Onların qəhrəmanlıq və şücaəti sayəsində əzəli torpaqlarımız azad olunaraq, gerçək sahibinə geri qaytarıldı. Cəmi 44 gün ərzində məğrur oğullarımız şəhidlik zirvəsinə yüksələn bütün soydaşlarımızın qisasını aldılar.

Yağı düşməndən qisasımızı alan oğullardan biri də Bərdə rayonunun Hacallı kəndində dünyaya göz açan baş leytenant Alı Cəfərovdur. Alı hələ kiçik yaşlarından hərbçi olmağı və hərbi mundirə sahib olmağı qarşısına məqsəd qoyub. Məqsədinə nail olmaq üçün o, 2 saylı tam orta məktəbin 9-cu sinfindən çıxaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldu. Liseyi müvəffəqiyyətlə başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul oldu. Tədris dövründə fəallıq və intizam nümayiş etdirən Alı hərbin bütün sirlərinə yiyələnərək peşəkar zabit kimi formalaşdı. Xidmətə başladığı ilk gündən etibarən tədris dövründə öyrəndiklərini tabeliyində xidmət edən şəxsi heyətə öyrədib. Bunun nəticəsidir ki, onun rəhbərlik etdiyi bölmə dərs, çöl çıxışı və təlimlərdə qarşıya qoyulan istənilən tapşırıqların öhdəsindən layiqincə gəlib.

Torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsində Azərbaycanın bütün mərd və vətənpərvər oğulları kimi, Alı da iştirak edib. O, şəxsi heyət ilə Qubadlının və Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərə cəlb edildi. Əməliyyatların ilk günlərindən cəsarəti və şücaəti ilə fərqlənən zabit komandirlərin verdiyi tapşırıqları qorxu bilmədən, mətanətlə yerinə yetirib. Dəqiq koordinatlar çıxararaq, sərrast atəşlə erməni qəsbkarlarının dayaq məntəqələrini, sığınacaqlarını, texnikalarını və şəxsi heyətini məhv edib. Hər an bu günün həsrətilə yaşayan Alı yorulmaq bilmədən yalnız irəliyə doğru gedirdi. Düşmənə göz açmağa imkan vermirdi. Belə ki, cəmi 44 gün davam edən haqq savaşımızda canını Vətən üçün qurban verən şəhid qardaşlarımızın və Alı kimi mərd oğullarımızın sayəsində torpaq həsrətinə son qoyuldu. Şəhidlərimizin qisası döyüş meydanında alındı. Bununla da bütün dünya Azərbaycan Ordusunun güc və qüdrətini gördü. Beləliklə, əzəli torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərdiyinə görə baş leytenant Cəfərov Alı Misir oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.



Zabit Vətən müharibəsindən söz açaraq dedi ki, doğma torpaqlarımız uğrunda döyüşdükcə sanki gücümüz daha da artırdı. Düşməni məğlub edib geri sıxışdıra-sıxışdıra uzun illərdən bəri işğalda qalmış ərazilərimizi azad edirdik. Qoynunda doğulduğun Vətən uğrunda vuruşmaq çox böyük xoşbəxtlikdir. Tarixin bu anlarında Qarabağı azad edənlərin sıralarında oldum. İrəli atdığımız hər addım bizi Zəfərə, qələbəyə yaxınlaşdırırdı. İlk vaxtlar ermənilər çox ciddi müqavimət göstərirdilər. Sonrakı günlər isə qəsbkarlar güclü hücumlarımız qarşısında dayana bilmədilər. Getdikcə qüvvəsi tükənən, müqaviməti qırılan, şəxsi heyətini, hərbi texnikasını itirən düşmən silah-sursatını atıb qaçmağa başladı. Yağılar geri çəkildikcə biz Qarabağın içərilərinə doğru irəliləyirdik. İlk dəfəydi ki, ayağım Qarabağın torpaqlarına dəyirdi. Bu anlarda xoş hisslər keçirirdim. Belə gərgin günlərdə Vətənə xidmət etməyimdən qürur duyurdum. Gərgin keçən döyüşlər nəticəsində ard-arda rayonlarımızı, həmçinin bir neçə strateji əhəmiyyətli yüksəkliyi qəsbkarlardan azad etdik. Noyabrın 10-da erməni işğalçıları məğlub oldular. Düşmən üzərində Zəfər çaldığımıza, Qarabağı azad etdiyimizə görə gələcək nəsillərin üzünə həmişə alnıaçıq, başıuca baxacağıq. Çünki biz Vətən uğrunda, torpaqlarımızın azadlığı uğrunda döyüşmüşük.

Qeyd edək ki, Alı sentyabrın 19-da rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi digər əməliyyat tədbirlərində də iştirak edib. Orada da o, xüsusi peşəkarlıq nümayiş etdirərək, qarşıya qoyulan bütün əmr və tapşırıqların öhdəsindən asanlıqla gəlib. Vətən və xalqımız baş leytenant A.Cəfərov kimi cəsur oğullarla həmişə fəxr edib və qürur duyacaq.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Laçın rayonunda hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində həlak olan hərbi qulluqçular dəfn ediliblər



*Laçın rayonunda hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində həlak olan hərbi qulluqçu Axundov Səxavət Fərasət oğlu Xaçmazda dəfn edilib.*

Şəhid Səxavət Axundov doğulub boya-başa çatdığı Xaçmaz rayonunun Sayad kəndində son mənzilə yola salınıb.

Dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Xaçmaz rayon İcra Hakimiyyətinin, rayon ictimaiyyətinin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Kənd qəbiristanlığında torpağa tapşırılan şəhidin məzarı üstünə əklil və gül dəstələri qoyulub. Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan Bayrağı şəhidin atasına təqdim edilib.

Səxavət Axundov hərbi xidmətə 2022-ci ilin oktyabrında yollanıb. Bu ilin aprel ayında hərbi xidməti başa vuracaqdı. Qardaşı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur.

* * *



Laçın rayonunda çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçu İsmayılov Həsən Ümid oğlu yanvarın 5-də Gəncədə dəfn edilib.

Həsən İsmayılov Gəncədəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri, hərbçilər, şəhər icra hakimiyyətinin rəhbərliyi və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İyirmi səkkiz yaşlı gizir ailəli idi. Onun iki övladı yadigar qalıb.

Xatırladaq ki, yanvarın 4-də Laçın rayonunda çətin relyefli dağlıq ərazidə hərbi nəqliyyat vasitəsinin qəzaya uğraması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları İsmayılov Həsən Ümid oğlu və Axundov Səxavət Fərasət oğlu həlak olublar.

**AZƏRTAC-ın materialları əsasında**

# Əbədiləşən ömürlər







Xalqımızın qəhrəmanlıq ənənələri bütün dövrlərdə Vətənin mərd oğulları tərəfindən yaşadılıb. Ana Vətəni böyük sevgi ilə qoruyub-



lar. Nəsillər dəyişsə də, əsrlər bir-birini əvəz etsə də, Vətəni, torpağı qoruyub müdafiə etmək vəzifəsi, borcu heç vaxt dəyişməyib. Minlərlə insan Vətən uğrunda canlarını qurban verib. Müqəddəs arzu və amalı bir olub: "Təki Vətən yaşasın".

20-ci əsrin sonlarında hadisələr təkrarlandı. Ölkəmizin müstəqilliyinə, suverenliyinə qarşı hər zaman təhlükə olan düşmən yenidən fəallaşdı, Vətənimizə qarşı elan olunmamış müharibəyə başladı. Şovinist qüvvələrinin köməyi ilə ölkəmizə hücumlar təşkil edildi. Vətənimizin ayrılmaz hissəsi olan Qarabağın Ermənistana birləşdirilməsi iddiası qabardıldı. Qanlı-qadalı hadisələr 30 ilə yaxın davam etdi. Xalqımız Vətən torpaqlarının azadlığı üçün minlərlə şəhid verdi. İyirmi faiz ərazimiz işğal altında qaldı. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizin həyatında yeni dövrün başlanğıcı oldu. Qısa müddətdə iqtisadi siyasi və hərbi sahədə islahatlar həyata keçirildi. Azərbaycan Ordusu Ulu Öndərin uzaqgörənliyi ilə yenidən quruldu. 1994-cü ildə ordumuz Füzuli bölgəsində uğurlu hərbi əməliyyatlar keçirdi. Bir neçə kənd və qəsəbəmiz işğalçılardan azad edildi. 12 may 1994-cü il tarixində atəşkəs müqaviləsi imzalandı. Ulu Öndər ordu quruculuğuna daha çox diqqət yetirdi. Qısa müddətdə ordumuz regionun güclü və qüdrətli ordusuna çevrildi. Bütün bunlar barədə Birinci Qarabağ müharibəsində iştirak etmiş "N" hərbi hissəsinin ehtiyatda olan zabitləri, veteranları, şəhid ailələrinin üzvləri bildirdilər və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Gəncə şəhərinin Şəhidlər xiyabanında keçirilən anım mərasimində veteranlar ətraflı danışdılar.

Öncə Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə itkin düşmüş hərbçilərin adları əks olunmuş abidəni ziyarət edib "Əbədi məşəl" abidəsi önünə qərənfillər düzdülər.

Mərasim iştirakçıları Göygöl rayonunda da Şəhidlər xiyabanına gələrək şəhidlərin xatirəsini ehtiramla yad etdilər.

Gəncə şəhərində şəhid Taleh Əliqara oğlu Nəbiyevin və Mehdi Namaz oğlu Şadıyevin yaşadıqları ünvanlara xatirə lövhələri vuruldu.

Şəhidlərin xatirəsinə həsr olunmuş anım mərasimlərində dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi, əbədiyaşar komandan Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtiramla yad olundu. Dövlət Himni səsləndirildi.



Ehtiyatda olan zabitlər Nazim Əhmədov, Elxan Qəniyev, Abakar Mirzəyev və başqaları çıxış edərək Ulu Öndərin 1993-cü ildə hakimiyyətə qayıdışından, sonra ordu quruculuğundan, görülən işlərdən bəhs etdilər. Bildirdilər ki, Silahlı Qüvvələrimiz yenidən quruldu, müasir idarəetmə sistemi yaradıldı. 1994-cü ilin mayında atəşkəs müqaviləsindən sonra ordumuzun sürətli inkişafına daha çox diqqət yetirən Ulu Öndər demişdir: "Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".



Müasir Azərbaycan Ordusunun yaradıcısı və qurucusu olan Ulu Öndərin bu günümüzə və ölkəmizin, xalqımızın gələcəyinə hesablanmış inkişaf strategiyasını uğurla davam etdirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin iqtisadi, siyasi hərbi qüdrəti daha da artdı. Dünya miqyasında mövqelərini möhkəmləndirdi. Ötən əsrdən xalqımıza miras kimi qalan Qarabağ problemi Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti və ordumuzun, xalqımızın yenilməz dəstəyi ilə 44 günlük Vətən müharibəsində həllini tapdı. 19 sentyabr 2023-cü ildə Silahlı Qüvvələrimiz keçirilən əməliyyat tədbirləri zamanı Ermənistanın qeyri-qanuni silahlı birləşmələrinin ölkəmizin ərazisindən tamamilə çıxarılmasını başa çatdırdı. Ölkəmizin suverenliyi tam bərpa edildi. Xalqımız tarixi qələbənin qürurunu yaşayır və Vətən uğrunda şəhid olan övladlarının xatirəsini böyük ehtiramla yad edir.

Sonda Şəhid ailələrinə fəxri fərmanlar təqdim olundu.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Qisas qiyamətə qalmadı

Xocalı faciəsi ötən əsrin ən dəhşətli faciəsi kimi qan yaddaşımıza yazılıb. Bu faciəni törədənlər də əsrin hərbi cinayətkarlarıdır. Qətliamın təşkilatçıları, ideya rəhbərləri daşnak Sarkisyanlar, Köçəryanlar, Balayanlar tarixin ədalət məhkəməsi qarşısında mütləq cavab verəcəklər...




Xocalı yarası hər bir azərbaycanlının qəlbində sağalmaz yara kimi qalacaq. Erməni faşistləri Xocalıda dəhşətli işgəncələrlə uşaq, qoca, qadın demədən qarşılarına çıxan hər kəsi vəhşicəsinə qətlə yetirdilər. Şəhər bir gecədə yandırılaraq məhv edildi. Bu illər ərzində yetişən nəsillərimiz Xocalı qisasıyla yaşadılar. "Xocalının qisasını erməni daşnaklarından, erməni faşistlərindən alacağıq", "Xocalı bizim qan yaddaşımızdır", "Qisas qiyamətə qalmayacaq", "Xocalıya ədalət!" - deyən xalqımızın cəsur övladları böyüdülər, böyüdükcə ürəklərindəki qisas hissi də böyüdü. 27 sentyabr 2020-ci il arzuların gerçəkləşdiyi gün oldu. İkinci Qarabağ müharibəsi başladı. Bəli, qisas qiyamətə qalmadı. Qəhrəman Vətən oğulları düşmən işğalında qalan torpaqlarımızı canları, qanları bahasına azad etdilər. Ötən ilin 19-20 sentyabrında ordumuzun uğurlu əməliyyatları nəticəsində hər bir azərbaycanlının qan yaddaşı Xocalı düşməndən təmizləndi. Artıq Xocalı qurbanlarının ruhu şaddır.

Məhərrəm də Xocalının qisasını alan oğulların sırasında qərar tutmuşdu. O da Xocalı dəhşətləri barədə valideynlərinin, müəllimlərinin ağrılı söhbətlərini çox dinləmişdi. Yanmış, külə dönmüş şəhər haqqında filmlərə dəfələrlə baxmışdı. Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayarsa, öndə gedənlərdən olacağını demişdi. O, Xocalı şəhəri istiqamətində gedən ağır döyüşlərdə igidlik, fədakarlıq nümunələri göstərib. Çünki erməni işğalında qalan bütün yurd yerlərimizi azad görmək arzusuyla ömrünü hərb sənətinə həsr etmişdi. Məhərrəm döyüş yoldaşları ilə birlikdə Xocalıya doğru addım-addım irəliləyib, döyüşə-döyüşə Xocalı şəhərinin lap yaxınlığına çatıb. O, Xocalının azad olunduğu günü görməsə də, döyüş yoldaşları onun böyük arzusunu yerinə yetiriblər.

Azərbaycan Ordusunun giziri Məhərrəm Əliəşrəf oğlu Hüseynov beşuşaqlı ailənin üçüncü övladı idi. O, 11 oktyabr 1983-cü ildə Cəlilabad rayonunda dünyaya göz açmışdı. Anası Sürəyya xanım bildirdi ki, Məhərrəm hələ orta məktəb illərindən Xocalıda baş verən dəhşətləri eşidib, onun kiçik qəlbində düşmənə nifrət yaranmışdı. “Deyirdi ki, gələcəkdə hərbçi olacaq, döyüşəcək, xocalılıların qisasını ermənilərdən alacaq. Məhərrəmin düşmənə nifrəti sonsuz idi. Xocalıda günahsız körpələrin, qocaların, qadınların dəhşətli işgəncələrlə öldürülməsini qəbul edə bilmirdi. İki oğlum hərbçi olub. Məhərrəm 15 il əyninə hərbi forma geyindi. Bu illərdə onun xidmət yeri yalnız ön xətt oldu. 44 günlük Vətən müharibəsi zamanı Xocavəndin alınmasında iştirak etmişdi. O, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib. Ən böyük arzusu Xocalıya Azərbaycanımızın üçrəngli bayrağını sancmaq idi. Çox vətənpərvər oğul idi. Bu gün Məhərrəm tək mənim oğlum deyil, bütün Azərbaycan xalqının oğludur".

Məhərrəm Hüseynov "Komando" dağ-təlim mərkəzində keçirilmiş "Komando başlanğıc kurs"unu müvəffəqiyyətlə bitirib. Sentyabrın 19-da ordumuzun həyata keçirdiyi antiterror tədbirləri zamanı düşmənin ağır texnikalarının və canlı qüvvəsinin məhv edilməsində fəal iştirak edib. "Xocalıya bayrağı özüm sancacağam", - deyən Məhərrəm Xocalı istiqamətində igidliklə döyüşərək, şəhidlik zirvəsinə yüksəlib. Sentyabrın 22-də Cəlilabad şəhər qəbiristanlığında torpağa tapşırılıb. Məhərrəmin bir qız, bir oğul övladı Vətənə əmanət qalıb.

Bu gün Şuşada, Xankəndidə, Xocalıda, Əsgəranda dalğalanan üçrəngli Azərbaycan bayrağı Məhərrəm kimi Vətən oğullarının gerçəkləşən arzularıdır.

**Lalə HÜSEYNOVA,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Vətən Müharibəsi Qəhrəmanı: Fəxr edirəm ki, qalib xalqın övladıyam

İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə əks etdirir. Otuzillik torpaq həsrətinə 44 gündə son qoyulması dövlətimizin qətiyyətinin, onun tarixi faktlara əsaslanan siyasətinin, rəşadətli ordumuzun gücünün dünyaya nümayişi oldu.

Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Ermənistan silahlı birləşmələrini darmadağın etməsi 2020-ci il noyabrın 8-də Vətən müharibəsində şanlı Qələbəmizlə nəticələndi. Bu Zəfər Azərbaycan xalqı tərəfindən əbədi olaraq xatırlanacaq. Bu Qələbədə mənim də payımın olduğu və tarixin şanlı səhifəsi yaşadığım üçün bir hərbçi kimi qürur hissi keçirirəm.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Vətən Müharibəsi Qəhrəmanı, Azərbaycan Ordusunun polkovnik-leytenantı Anar Mirzəyev söyləyib.




Keçdiyi döyüş yolu haqqında danışan A.Mirzəyev qeyd edib ki, ümumiyyətlə, 30 ildə qurulmuş istehkam qurğularını nəzərə alsaq, müharibə zamanı kifayət qədər maneələr yaradılmışdı. Qarabağ relyef baxımından dağlıqdır, çətin iqlim şəraitinə malikdir. Amma buna baxmayaraq, düşmən ilk döyüşlərdən Azərbaycan Ordusunun gücü qarşısında müqavimət göstərə bilmir və geri çəkilirdi.

"Biz Vətən müharibəsinin ilk günlərindən - düşmənin növbəti təxribatının qarşısını almaq üçün döyüşə atılarkən xalqımızın və dövlətimizin orduya göstərdiyi etimadı açıq-aşkar hiss edirdik. Bizi Qələbəyə daha da yaxınlaşdıran, bu Zəfərə 44 gün kimi qısa müddətdə gətirib çıxaran amil məhz xalqımızın inamı idi. Çünki biz istər döyüş təyinatlı rayonlara doğru hərəkət edəndə, istərsə də savaş gedən ərazilərdə xalqımızın əsgər və zabitlərimizə göstərdiyi qayğının şahidi olurduq. Döyüşlər zamanı biz deyirdik ki, Qələbə xalqımızın haqqıdır, nəyin bahasına olursa-olsun, bu Zəfəri xalqımıza yaşatmaq mənəvi borcumuzdur. Şükürlər olsun ki, bu şanlı Qələbəni xalqımıza yaşada bildik.

İkinci Qarabağ müharibəsinin gedişində, həmçinin gördük ki, döyüşçülərimiz və Azərbaycan vətəndaşları qəlbində Vətənə böyük məhəbbət bəsləyirlər. Bu da əsgərlərimizin Vətənə, Bayrağa sevgisinin bariz nümunəsi idi. Çünki dəfələrlə yaralanmasına baxmayaraq, döyüşçülərimiz savaş yerini tərk etmirdilər. Hətta onlar özlərinə ilkin tibbi yardım göstərilməsini istərmirdilər. Bax biz həmin ruh yüksəkliyi ilə döyüşmüş, ərazilərimizi azad edərək irəliləmiş və qısa zamanda Qələbəni qazanmışdıq", - deyə polkovnik-leytenant vurğulayıb.

Uğurlarımızın qazanılmasında müəyyən amillərin mühüm rol oynadığını da xatırladan Vətən Müharibəsi Qəhrəmanı bildirib: "Onlardan ən vacibi Azərbaycan Respublikası Prezidentinin yürütdüyü qətiyyətli və məqsədyönlü siyasətdir. Dövlətimizin başçısı çıxışlarında hər zaman dediyi kimi, nəyi, necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilir. Digər amil xalqımızın Azərbaycan Ordusuna dəstəyi idi. Ən əsas məsələlərdən biri də o idi ki, Azərbaycan Ordusu doğma ata-baba torpaqlarımızı düşmən tapdağından azad etmək üçün haqq savaşına qatılmışdı. Odur ki, Vətən müharibəsi Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun şanlı Zəfəri ilə nəticələndi. Hazırda bütün dünyada yaşayan azərbaycanlılar Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Mən xalqımızı Qələbələr münasibətilə təbrik edirəm. Fəxr edirəm ki, qalib xalqın övladıyam, Müzəffər Ali Baş Komandanın əsgəriyəm".

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Anar Mirzəyev "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və digər medallarla təltif olunub.

# Xəbərlər: hadisələr, faktlar

## Ötən il Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən 2237 terrorçu zərərsizləşdirilib



Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən son bir həftədə 36 terrorçu zərərsizləşdirilib. Ötən il zərərsizləşdirilən terrorçu sayı isə 2237-ə çatıb.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin həftəlik hesabatında bildirilib.

Məlumata əsasən, ötən il "Pəncə-Kilid" əməliyyatlarının keçirildiyi bölgədə 717 terrorçu zərərsizləşdirilib.

Son bir həftədə əməliyyat bölgələrinə terrorçular tərəfindən 30 hücum atəşi açılıb. Cavab əməliyyatlarında 27 terrorçu zərərsizləşdirilib.

Ötən il yanvarın 1-dən terrorçular tərəfindən Türk əsgərlərinə qarşı 526 təxribat törədilib ki, bunlara verilən cavablar nəticəsində zərərsizləşdirilən terrorçu sayı 1529 olub.

Məlumatda bildirilib ki, son bir həftədə qeyri-qanuni yollarla Türkiyəyə keçməyə cəhd edən 118 nəfər saxlanılıb, 2 min 113 nəfərin sərhədi keçməsinin qarşısı alınıb. 2023-cü ildə bu rəqəm ümumilikdə 13 min 758 təşkil edib.

## Rumıniya “Patriot” hava hücumundan müdafiə sistemi üçün 200 raket alacaq



Rumıniya "Patriot" hava hücumundan müdafiə sistemi üçün 200 raket alacaq.

Bu barədə Rumıniya Müdafiə Nazirliyi məlumat yayıb.

Satınalmalar NATO-nun Dəstək və Satınalma Agentliyi (NSPA) ilə müqavilə əsasında Almaniya, İspaniya və Hollandiya ilə birgə həyata keçirilir. Ümumiyyətlə, "Patriot" hava hücumundan müdafiə sistemi üçün minə qədər raketin alınmasını nəzərdə tutulur.

Rumıniya Müdafiə Nazirliyi bu birgə satınalma proqramında iştirak etmək üçün parlamentdən icazə alıb. 200 raketin ümumi dəyəri təxminən 1,09 milyard avrodur.

## Husilər Qırmızı dənizdə koalisiyaya qoşulan istənilən ölkəni hədəf alacaqlarını bildiriblər



Qırmızı dənizdə naviqasiya azadlığını təmin etmək üçün ABŞ-ın himayəsi altında yaradılan beynəlxalq koalisiyaya qoşulan hər bir dövlət Yəmənin "Ənsar Allah" üsyançı hərəkatının (husilər) raket hücumlarına məruz qalacaq.

Bunu BBC-yə müsahibəsində hərəkatın siyasi şurasının üzvü Məhəmməd Əli əl-Husi deyib.

"ABŞ-ın yaratdığı koalisiyaya daxil olan istənilən dövlət naviqasiya təhlükəsizliyini itirəcək və raketlərimizin hücumu altında qalacaq", - deyə əl-Husi vurğulayıb.

Qeyd edək ki, Qəzza zolağında Fələstin-İsrail münaqişəsinin şiddətlənməsindən sonra Yəmənin husi üsyançıları İsrail ərazisinə hücumlar həyata keçirəcəklərini və Fələstin anklavında əməliyyat dayandırılana qədər əlaqəli gəmilərin Qırmızı dəniz və Bab əl-Məndəb boğazı sularından keçməsinə icazə verməyəcəklərini bildiriblər. Buna cavab olaraq ABŞ səlahiyyətliləri gəmilərin naviqasiya azadlığını və təhlükəsizliyini təmin etmək üçün Qırmızı dənizdə "Prosperity Guardian" (Rifah Mühafizə Əməliyyatı) əməliyyatına başlamaq niyyətlərini açıqlayıblar. Bu əməliyyata qoşulanlar arasında Bəhreyn, Böyük Britaniya, Danimarka, İspaniya, İtaliya, Kanada, Niderland, Norveç, Seyşel adaları və Fransa yer alıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# İdman da hərbi xidmətdə nailiyyətlərin əsasını təşkil edir

Yüksək fiziki hazırlıq səviyyəsi hərbi qulluqçunun qarşısında duran vəzifələri uğurla yerinə yetirməsi üçün lazımi bacarıq qazandıran əsas amillərdən biridir. Boşuna deməyiblər ki, fiziki hazırlıq döyüş hazırlığının əsas tərkib hissələrindən biridir. İdman fiziki göstəricilərin yaxşılaşdırılmasından başqa, güclü, möhkəm və daim döyüşə hazır ordunun formalaşmasında da böyük addımdır. Bu səbəbdən də şəxsi heyətin fiziki hazırlıq göstəricilərinin hər zaman yüksək səviyyədə saxlanılması rəhbərliyin diqqətindədir. Hərbi hissələrdə fiziki hazırlıq məşğələləri təsdiq olunan günün nizam qaydalarına uyğun olaraq keçirilir.



"N" hərbi hissəsində də fiziki hazırlıq məşğələsinin keçirilməsinin şahidi oldum. Hərbi qulluqçular məşğələ rəhbərinin nəzarəti altında idman alətlərində müxtəlif hərəkətlər yerinə yetirirlər. Məşğələ rəhbəri baş gizir Kamil Şükürovun komandaları ilə əsgərlər bir alətdən digər alətə keçir, yüksək peşəkarlıqla idman hərəkətlərini icra edirlər. Məşğələnin gedişatına mane olmamaq üçün dərs vaxtının bitməsini gözlədim. Şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən yüksək bacarıqla gəldikdən sonra onlara yaxınlaşdım.

Baş gizir Kamil Şükürovla həmsöhbət olduq. O bildirdi ki, Azərbaycan əsgərinin fiziki hazırlığı hər zaman yüksək olmalıdır. Komandanlığın diqqət və qayğısı nəticəsində hərbi hissələrdə müasir standartlara uyğun idman şəhərcikləri salınır, qoşun (qüvvə) növləri, birlik, birləşmə və hərbi hissələr arasında müxtəlif idman yarışları keçirilir, hərbi qulluqçuların idmanla məşğul olmaları üçün bütün lazımi şərait yaradılır. "Görülən işlərin nəticəsidir ki, hərbçilərimiz güclü, iradəli və dözümlüdürlər. Bütün dünya ordumuzun nələrə qadir olduğunun şahididir. Artıq azad olunan ərazilərdə şanlı üçrəngli bayrağımız dalğalanır və əzəli torpaqlarımız Azərbaycan əsgərinin mühafizəsi altındadır", - deyəndə onun üzündə böyük fəxarət hissinin şahidi oldum.

Söhbətimiz zamanı öyrəndim ki, Kamil Füzuli rayonunun Horadiz kəndində anadan olub. Kamil yetkinlik yaşına çatanda Vətən torpaqlarının azadlığı uğrunda əlindən gələni edəcəyinə söz verməyi. Artıq 15 ilə yaxındır ki, hərbi xidmətdədir. Zəfər tariximiz olan Aprel döyüşləri və Vətən müharibəsində iştirak edərək özünə verdiyi sözü tutdu. Bu gün qürurla bizə döyüşlər haqda danışır, maraqlı hadisələrdən bəhs edir və "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edildiyini bildirir.

Baş gizir Kamil Şükürovla söhbətimiz yekunlaşdıqdan sonra əsgərlərimizlə tanış oldum. Salyan rayonundan olan əsgər İsmayıl Məmmədovun idmanın sərbəst güləş növü ilə məşğul olduğunu öyrəndim. Bildirdiyinə görə, Bakı və Respublika səviyyəsində keçirilən yarışlarda müxtəlif yerlərə layiq görülüb, diplom və medallarla təltif olunub. O, idmanın həm bədəni formada saxlamağa, həm də sağlamlığa böyük töhfə verdiyini bir daha qeyd etdi. "Hər insan öz sağlamlığına önəm verməlidir. Düzgün qidalanmaq, mütəmadi idmanla məşğul olmaq vacibdir. Bundan başqa, hərbi xidmətə çağırılacaq gənclərə tövsiyə etmək istərdim ki, idmanla müntəzəm məşğul olsunlar. O zaman onlar xidmətdə nailiyyətlər qazanacaqlar.

Növbəti həmsöhbətimiz əsgər Məhəmmədəli Qafarov da hərbi qulluqçu üçün fiziki hazırlığın önəmli olduğundan danışdı. "Quba rayonu Vladimirovka kəndində böyümüşəm və kiçik yaşlarımdan idmana böyük həvəs göstərirdim. Həyətimizdə turnik və digər idman alətləri vardı. Biz də öz növbəmizdə məşğul olaraq, fiziki göstəricilərimizi artırırıq. Hərbi xidmətə gəldikdən sonra isə bu vərdişlər mənə kömək oldu. Artıq alətlərdən düzgün istifadə qaydasını bilirdim. Peşəkar komandirlərimizin rəhbərliyi altında fiziki hazırlıq məşğələlərində əsgər yoldaşlarımızla düzgün qaydada idman edir, fərdi və komanda göstəricilərini yüksəldirik. Bir sözlə, hər birimiz idmana böyük həvəslə yanaşırıq", - dedi.

Əsgərlər Amil Quluzadə, Namizəd Quliyev və Rəvan Xankişiyev də əsgər yoldaşlarının sözlərinə qoşuldular. Onlar bildirdilər ki, Azərbaycan Ordusu regionda ən güclü və qüdrətli ordudur və hər bir hərbi qulluqçu bu ada layiq olması üçün səylərini əsirgəmir.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Odusu"**

# İdman

## "Qarabağ" son 25 ilin rekorduna imza atıb



Azərbaycan Premyer Liqasının 2023-cü ildə keçirilən oyunlarında "Qarabağ" hamıdan çox - 88 qol vurub.

Bu toplardan 45-i cari mövsümün ilk, 43-ü isə ötən mövsümün ikinci yarısına təsadüf edib.

Qurban Qurbanovun yetirmələri bununla da Azərbaycan çempionatlarında son 25 ilin rekorduna imza atıb.

1998-ci ildən sonrakı dövr üçün əvvəlki rekord 87 qola bərabər idi. Buna 2022-ci ildə nail olan Ağdam klubu öz göstəricisini 2023-cü ildə yaxşılaşdırıb.

Daha çox qola sonuncu dəfə 1998-ci ildə "Kəpəz" imza atıb. Qərblilər həmin vaxt 91 dəfə fərqlənib.

"Qarabağ"ın ötən ilki məhsuldarlığı ölkə çempionatları tarixində ümumilikdə 4-cü nəticənin təkrarıdır. 1995-ci ildə "Kəpəz" eyni sayda fərqlənib.

Qeyd edək ki, mütləq rekord 1992-ci ildə 104 qol vuran "Neftçi"yə məxsusdur.

Bir təqvim ilində 75 və daha çox qol vuranlar:

1. "Neftçi" - 104 (1992)
2. "Xəzər" (Sumqayıt) - 100 (1992)
3. "Kəpəz" - 91 (1998)
4-5. "Kəpəz" - 88 (1995)
"Qarabağ" - 88 (2023)
6. "Qarabağ" - 87 (2022)
7. "Neftçi" - 78 (1996)
8. "Kəpəz" - 76 (1992)

## Dünyanın 2023-cü il üçün rəmzi komandası açıqlanıb



Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) ötən ilin rəmzi komandasını açıqlayıb.

2023-cü ilin rəmzi "11-liy"ində Lionel Messiyə yer verilsə də, Kriştianu Ronaldunun adı bu siyahıya salınmayıb:

Qapıçı: Ederson (Braziliya, "Mançester Siti").

Müdafiəçilər: Kim Min Je (Canubi Koreya,"Bavariya"), Ruben Dias (Portuqaliya,"Mançester Siti"), Alfonso Devis ( Kanada, "Bavariya").

Yarımmüdafiəçilər: Kevin de Bruyne ( Belçika, "Mançester Siti"), Lionel Messi ( Argentina, "İnter Mayami"), Cud Bellinqem (İngiltərə, "Real Madrid"), Rodri (İspaniya, "Mançester Siti").

Hücumçular: Erlinq Haland (Norveç, "Mançester Siti"), Kilian Mbappe (Fransa, PSJ), Harri Keyn ( İngiltərə, "Bavariya").

## Kriştianu Ronaldu ötən il dünyanın ən çox qol vuran futbolçusu olub



2023-cü ildə dünyanın ən çox qol vuran oyunçuları bəlli olub.

Bombardirlər siyahısına Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun hücumçusu Kriştianu Ronaldu başçılıq edir. 38 yaşlı futbolçu bu il klub və milli səviyyəsində keçirdiyi 58 matçda ümumilikdə 53 qola imza atıb.

Fransa yığmasının və PSJ-nin forvardı Kilian Mbappe 53 görüşdə vurduğu 52 qolla ikinci pillədə qərarlaşıb. İngiltərə millisinin hücumçusu Harri Keyn isə üçüncü olub. Almaniya "Bavariya"sında çıxış edən forvard 57 oyunda 52 dəfə rəqib qapılarına yol tapıb.

İngiltərənin "Mançester Siti" komandasının norveçli hücumçusu Erlinq Holann isə 60 oyunda 50 qolla dördüncüdür.

**AZƏRTAC-ın materialları əsasında**

# "Ehtiyat zabit hazırlığı kursu"na növbəti qəbul başlayır

Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, **35 yaşınadək** olan vətəndaşlar **2024-cü il yanvarın 19-dək** müvafiq sənədlərlə birlikdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində (AO TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilirlər. Komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər müvafiq ixtisaslar üzrə kursa qəbul edilirlər.

"Ehtiyat zabit hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vuran kursantlara "leytenant" hərbi rütbəsi verilməklə, zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və onlar ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

**Kursa qəbul olunmaq istəyən namizədlər AO TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər**:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surətilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 1 ədəd;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 1 ədəd;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 1 ədəd;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- psixiatrik, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 1 ədəd.

**Qeyd**: Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etmələri xahiş olunur.

**Ünvan**: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi).

**Telefon**: (012) 538-35-70.

**Müraciət etmə vaxtı**: 2024-cü il yanvarın 19-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 09:00-dan 17:00-dək.

Qurbanov Elbrus Yusif oğluna məxsus müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 1<br>Nüsxə 4646 |